

*Azərbaycan dünyaya günəş kimi doğacaq.*
*Heydər ƏLİYEV*

*XALQIN SÖZÜ HAQQ SÖZÜDÜR*

# LERİK

№ 14 (5574) ❋ 22 Noyabr 2016-cı il ❋ Qəzet 1937-ci ildən çıxır ❋ Rayonun ictimai-siyasi qəzeti ❋ Qiyməti 40 qəpik


# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİ ƏBƏDİDİR

## Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümünə həsr olunmuş elmi-praktiki konfrans keçirildi

**Lerik Rayon mədəniyyət mərkəzində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümünə həsr olunmuş elmi-praktiki konfrans keçirildi.**

Öncə tədbir iştirakçıları müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevə hörmət və ehtiramlarını bildirərək Ulu Öndərin abidəsini ziyarət etdilər, qarşısına tər gül dəstələri qoydular.

Rayon mədəniyyət mərkəzində davam etdirilən tədbiri giriş nitqi ilə açan Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov konfrans iştirakçılarını bayram münasibəti ilə təbrik etdi və konfransın gündəliyi haqqında məlumat verdi. "Müstəqil Azərbaycanın 25 il ərzində keçdiyi tarixi yol" mövzusunda məruzə ilə çıxış edərək bildirdi ki, Azərbaycanın dövlət müstəqilliyinin bərpasının iyirmi beş illik yubileyinin ölkəmizin həyatında müstəsna əhəmiyyət daşıyan ictimai-siyasi hadisə olduğunu nəzərə alaraq, müstəqillik illərində Azərbaycan Respublikasının keçdiyi zəngin inkişaf yolunda qazandığı parlaq nailiyyətlərin təbliğini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 11 oktyabr 2016-cı il tarixli 2378 nömrəli Sərəncamı ilə xüsusi Tədbirlər Planı təsdiq edilmişdir.



Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu bəyan edərək öz dövlət müstəqilliyini və suverenliyini beynəlxalq aləmə bildirdi. Dövlət müstəqilliyimiz qısa bir müddətdə dünya birliyi ölkələri və Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmaqla respublikamız beynəlxalq hüququn subyektinə çevrildi. Həmin gün tariximizə dövlət müstəqilliyinin bərpası günü kimi daxil oldu. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı, himni və gerbi dövlət atributları kimi qəbul edildi.

Azərbaycanda müstəqil, dünyəvi, demokratik dövlət quruculuğunun reallaşdırması müstəqilliyin ilk illərində ölkədə yaşanan hərc-mərclik üzündən mümkün olmamışdır. 1992-ci ilin mayında hakimiyyətə silahlı yolla gələn AXC-Müsavat cütlüyünün 1 illik iqtidarı dövründə ölkədəki vəziyyət daha da gərginləşmiş, vətəndaşların təhlükəsiz yaşamaq kimi təbii hüququnun təminatında ciddi problemlər yaranmışdı. Qanunçuluğun kövrək xarakter daşıması, hüquq mühafizə orqanlarının üzərlərinə düşən vəzifələri həyata keçirə bilməməsi son nəticədə ictimai həyatın müxtəlif sahələrində vəziyyətin daha da pisləşməsinə, cinayətkar ünsürlərin mütəşəkkil fəaliyyətinə, qanunsuz silahlı qruplaşmaların sərbəst hərəkət etməsinə münbit şərait yaratmış, daxildə qeyri-sabit və təhlükəli vəziyyətə səbəb olmuşdu. Bir tərəfdən ayrı-ayrı məmurların dövlətin o zamankı rəhbərinə tabe olmaması nəticəsində hakimiyyət böhranının dərinləşməsi, digər tərəfdən isə, ölkənin cənubunda və şimalında separatçıların məkrli niyyətlərlə baş qaldırması ölkədəki vəziyyəti dalana gətirib çıxarmışdı.

Məhz xalqın təkidi ilə 1993-cü ilin iyun ayında hakimiyyətə qayıdan Heydər Əliyev Milli Məclis qarşısında etdiyi dərin məzmunlu çıxışında yeni siyasi strategiyanın mahiyyətini açıqlayaraq Azərbaycan Respublikasının xarici siyasət prioritetlərini müəyyən etdi. Bu, Azərbaycan xalqının taleyində mühüm bir dönüş anı kimi daimi xatırlanacaqdır. O, bütün biliyini, bacarığını - özünün dəfələrlə qeyd etdiyi kimi, həyatının qalan hissəsini Azərbaycan xalqına, onun firavan yaşamasına həsr etdi.

Hakimiyyətə gəldikdən sonra Azərbaycanın milli inkişaf strategiyasını müəyyənləşdirən Ulu Öndər Heydər Əliyev nəzarətsiz silahlı dəstələri, dövlətçiliyə təhlükə yaradan digər qüvvələri zərərsizləşdirərək, 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələrində qətiyyətli mövqeyi ilə Azərbaycanı ağır faciələrdən xilas edə bildi. İctimai və hüquqi sferada özbaşınalığa, qanunsuzluğa son qoymuş Heydər Əliyevin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunda atdığı addımlar, milli dövlətçilik ənənələrinə, beynəlxalq standartlara əsaslanan köklü hüquq islahatları, insan hüquq və azadlıqlarının təminatı sahəsində əsaslı dönüşə səbəb oldu. Ulu Öndər Azərbaycanın perspektiv inkişaf prioritetlərini düzgün müəyyənləşdirmiş, sivil Qərb dəyərlərinin cəmiyyətdə tam mənimsənilməsinə, demokratik meyarların möhkəmlənməsinə etibarlı zəmin yaratmışdır.

Keçid dövrünü başa vuran respublikamız bu gün özünün uzunmüddətli inkişaf strategiyasının istiqamətlərini müəyyən edən bir ölkədir. Azərbaycan dünya miqyasında iqtisadi artım sürətinə görə ön sıralarda gedərək islahatçı ölkə kimi tanınır. Respublikamızda neft və qeyri-neft sektorlarının yüksəlişi, çoxşaxəli iqtisadiyyatın ahəngdar inkişafı təmin olunmuşdur. Ümumi daxili məhsul, büdcə və valyuta ehtiyatlarımız ildən-ilə artır. Yeni infrastruktur formalaşır, regionlarda belə, iri-miqyaslı strateji layihələr gerçəkləşdirilir.

Azərbaycanda ordu quruculuğu prosesi də böyük uğurla gedir. Silahlı Qüvvələrimizin peşəkarlıq və hazırlıq səviyyəsi, maddi-texniki bazası və döyüş qabiliyyəti möhkəmləndirilir. Müdafiə sənayesinin inkişafı Silahlı Qüvvələrimizin maddi-texniki bazasının möhkəmləndirilməsinə zəmin yaratmış və ordunun döyüş qabiliyyətini artırmışdır. Ermənistanın təxribatçı fəaliyyəti səbəbindən 2016-cı ilin aprel ayında cəbhədə cərəyan edən hadisələrin nəticələri Qafqazda ən güclü orduya malik olduğumuzu bir daha təsdiq etdi.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin gərgin səyi ilə Azərbaycan dövlətçiliyinin daha da möhkəmləndirilməsinə, xalqın həyat səviyyəsinin yüksəlməsinə xidmət edən çoxsaylı Dövlət Proqramları uğurla həyata keçirildiyini, ölkədə tam ictimai-siyasi sabitliyin hökm sürdüyünü, yeni iş yerləri yaradıldığını, əhalinin rifah halı gündən-günə yaxşılaşdığını diqqətə çatdırdı. Təkcə rayonumuzda aparılan tikinti-quruculuq, abadlıq işləri, tikilən yeni sosial obyektlər, məktəblər, yollar, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün inşa edilən yaşayış binaları və ən əsası rayonumuzun inkişafında mühüm rol oynayan turizm bazalarının yaradılması dediklərimizə əyani nümunə olduğunu vurğuladı.

Rayon polis şöbəsinin rəisi Hüseynəli Məlikov "Müstəqil Azərbaycanın hüquqi dövlət quruculuğu", Lerik şəhər 2 nömrəli tam orta məktəbin müəllimi Hüseynbala Əliyev "Təhsilimizə 25 ilin zirvəsindən baxış", Gənclər və İdman İdarəsinin rəisi Natiq İsaqov "Müstəqil Azərbaycan cəmiyyətinin qurulmasında gənclərin rolu", Lerik şəhər 2 nömrəli tam orta məktəbin müəlliməsi Şəhla Məmiyeva "Müstəqilliyin möhkəmləndirilməsində Azərbaycan qadınının rolu", Lerik Rayon Veteranlar Təşkilatının sədri Hidayət Bəşirov "Müstəqilliyimiz əbədidir" mövzularında, ağsaqqal Tarverdi Ağayev çıxış edərək 25 il ərzində müstəqilliyin möhkəmlənməsi və bu illər ərzində Heydər Əliyev dühası nəticəsində qazanılan uğurlar haqqında məlumat verdilər.

Bu gün Azərbaycan və onun istiqlaliyyəti üçün ən mühüm təminat faktorunun ümummilli lider Heydər Əliyevin bərqərar etdiyi güclü dövlətçilik xəttini uğurla davam etdirən yeni liderin - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ulu Öndərin ideyalarına sadiq qalaraq bu dövləti daha da inkişaf etdirdiyini, xalqın ən böyük milli sərvəti olan müstəqilliyin möhkəmləndirilməsi üçün əzmkarlıqla çalışdığını vurğuladılar. Azərbaycan xalqının qəlbən inandığı və siyasətini bəyəndiyi liderinin rəhbərliyi altında daha böyük uğurlar qazanacağına, ən müxtəlif sahələrdə daha böyük nailiyyətlərə imza atacağına əmin olmaqla, onun siyasətini daim dəstəkləyəcəklərini bildirdilər.

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞI GÜNÜ MÜNASİBƏTİLƏ

"Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 17 noyabr tarixli 595 nömrəli Sərəncamına əsasən, habelə gənclərin və yeniyetmələrin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi sahəsində müəyyən edilmiş vəzifələrə uyğun olaraq 9 Noyabr - Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibəti ilə rayonda fəaliyyət göstərən idarə, təşkilat və müəssisələrdə, ümumtəhsil məktəblərində, eləcə də məktəbəqədər təhsil müəssisələrində silsilə tədbirlər keçirilmiş, vətəndaşlarda dövlət rəmzlərinə, müstəqil dövlətçilik ənənələrinə hörmət və sədaqət hissinin gücləndirilməsinə, uşaqların, yeniyetmə və gənclərin Azərbaycanın milli-mədəni irsi və tarixi haqqında məlumatlandırılması, onların Azərbaycanın dövlət rəmzləri haqqında biliklərinin möhkəmləndirilməsinə yönələn məruzə və çıxışlar dinlənilmişdir.



Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibəti ilə noyabrın 8-də Lerik Rayon İcra Hakimiyyəti və Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Lerik şəhərinin mərkəzindəki Dövlət bayrağı meydanına veloyürüş keçirilmişdir. 50 nəfərədək iştirakçının qatıldığı yürüş Lerik şəhər 1 saylı texniki fənlər təmayüllü liseyindən start götürmüş, Heydər Əliyev meydanında şəhər sakinlərinin sürəkli alqışları ilə başa çatmışdır. Yürüş iştirakçıları ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət etmiş, abidənin önündə Azərbaycanın Dövlət Himnini sakinlərlə birgə ifa etmişlər. Yürüş iştirakçılarına rayon gənclər və idman idarəsinin Fəxri fərmanları təqdim edilmişdir.

Yürüş iştirakçıları rayon mədəniyyət mərkəzində 9 Noyarb - Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibəti ilə rayon məktəblilərinin əl işlərindən ibarət sərgi ilə tanış olmuşlar.

# AQRAR SAHƏ İNKİŞAF ETDİRİLMƏLİDİR

**2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrlə bağlı rayon icra hakimiyyəti başçısının hesabatına həsr olunmuş Şuranın geniş iclası keçirildi**

Lerik Rayon İcra Hakimiyyəti başçısı yanında rayon rəhbərliyinin, hüquq mühafizə orqanlarının, idarə, müəssisə, təşkilat rəhbərlərinin, ərazi icra nümayəndələri, bələdiyyə sədrləri, ağsaqqallar, gənclər və ictimaiyyətin nümayəndələrinin iştirak ilə "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasından irəli gələn vəzifələr və 2016-cı ilin doqquz ayında Lerik rayonunda görülmüş işlər, qarşıda duran vəzifələr" barədə Şuranın geniş iclası keçirildi.



Şura iclasında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin baş məsləhətçisi Habil Əzənmədov iştirak edirdi.

Şura iclasını giriş nitqi ilə açan rayon icra hakimiyyəti başçısı Rövşən Bağırov Prezident cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı dünya iqtisadiyyatında böhranlı vəziyyətin yaşandığı bir zamanda ölkəmiz öz yolu ilə getdiyini, öz siyasətini apardığını, heç kimin sözü ilə oturub-durmadığını və ona görə də bu gün Azərbaycanda inkişaf və sabitlik olduğunu bildirdi.

Prezident cənab İlham Əliyevin iclasda bu yaxınlarda ölkəmizdə keçirilən referendumun nəticələrinə də münasibət bildirdiyini, Azərbaycan xalqının referendumun nəticələrini dəstəklədiyini, onun iradəsinin ümumxalq səsverməsinin nəticələrində öz əksini tapdığını vurğuladı. Ölkə başçısı tərəfindən həyata keçirilən uğurlu iqtisadi reformaların rayonumuzun da sosial-iqtisadi inkişafına ciddi təsir göstərdiyini, keçən 9 ay ərzində də əvvəlki illərdə olduğu kimi rayonumuzda aparılan quruculuq-abadlıq işləri barədə məlumat verdi və şəhərimizin küçələrində, kəndlərimizdə abadlıq işlərinin davam etdirildiyini qeyd etdi.

**(Davamı səh.2-də)**

# AQRAR SAHƏ İNKİŞAF ETDİRİLMƏLİDİR

(Əvvəli səh.1-də)

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov geniş məruzə ilə çıxış etdi. Rayon təhsil şöbəsinin müdiri Balaşirin Nəsirov, kənd təsərrüfatı idarəsinin müdiri Mahmud Zahidov, mərkəzi xəstəxananın baş həkimi Mübariz Ağayev çıxış edərək görülmüş işlər və qarşıda duran vəzifələr barədə məlumat verdilər.



Daha sonra Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin baş məsləhətçisi Habil Əzənmədov çıxış edərək bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət başçısının əhalinin həyat tərzinin yaxşılaşdırılması istiqamətində reallaşdırılan tədbir, ölkədə kənd təsərrüfatı sahəsinin inkişafı etdirilməsi üçün aparılan siyasət, həyata keçirilən islahatlar barədə geniş məlumat verdiyini, respublikada pambıqçılığın, baramaçılığın, tütünçülüyün, çayçılığın inkişafı ilə bağlı ölkə başçısı tərəfindən qarşıya qoyulan vəzifələri diqqətə çatdırdı. Ölkəyə valyuta gətirəcək kənd təsərrüfatı məhsullarının istehsalının genişləndirilməsi, xüsusilə də turizmin inkişafının mühüm əhəmiyyət kəsb etdiyini bildirdi. Bundan əlavə, meliorasiya tədbirlərinin gücləndirilməsi, sahibkarlara güzəştli kreditlərin verilməsi, ailə bizneslərinin inkişaf etdirilməsinin diqqətdə saxlanılmasını qeyd edərək, ölkə başçısının qarşıya qoyduğu vəzifələrin icrası ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini verdi.

Şura iclasına yekun vuran rayon icra hakimiyyətinin başçısı qarşıya qoyulmuş vəzifələrlə bağlı həyata keçirilən tədbirləri diqqətə çatdırdı.

Şura iclasında qeyd olunan təkliflər və qarşıda duran vəzifələrlə bağlı müvafiq qərar və Azərbaycan Respublikasının Prezidentinə müraciət qəbul olundu.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı R.Bağırov Respublika Veteranlar Təşkilatı tərəfindən "General Həzi Aslanov yubiley medalı" ilə təltif edilmiş rayon veteranlar təşkilatının sədri Hidayət Başirova medal təqdim edildi.

Günün ikinci yarısında Habil Əzəmmətov rayon icra hakimiyyətinin konfrans zalında Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırovun iştirakı ilə ərazi icra nümayəndələri, kənd təsərrüfatı mütəxəssisləri və aidiyyəti idarə, müəssisə rəhbərləri ilə görüş keçirdi. O, aqrar sektorun prioritet sahə olduğunu bir daha nəzərə çatdırdı və rayon üzrə ixtisaslaşmanın aparılmasının vacibliyini qeyd etdi. Təhlillərin aparılması, rentabelli sahələrin müəyyən olunması, rayon üçün ənənəvi sahə olan tütünçülüyün inkişaf etdirilməsi ilə bağlı yol xəritəsinin hazırlanması barədə müvafiq tapşırıqlarını verdi.

# "NODA-ŞİNGƏDULAN-XANAGAH AVTOMOBİL YOLUNUN TİKİNTİSİ İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 01 NOYABR 2016-CI İL TARİXLİ SƏRƏNCAMI LERİK ƏHALİSİNİN SEVİNCİNƏ SƏBƏB OLMUŞDUR

**Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevə**

**Möhtərəm cənab Prezident!**

Lerik rayonunun Noda-Şingədulan-Xanəgah avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında verdiyiniz sərəncam rayonunumuzun sosial-iqtisadi inkişafına yönəlmiş əvəzsiz tədbirlərdəndir. Bu Sərəncam həm o yoldan mütəmadi istifadə edən insanlar, həm də bütün Lerik rayon sakinləri tərəfindən sevinclə qarşılanmışdır. Bizə göstərdiyiniz diqqət və qayğınızı yüksək qiymətləndirməklə Sizə öz dərin minnətdarlığımızı və təşəkkürümüzü bildiririk.

Allah Sizi qorusun!

Hörmətlə,

Gendov və Osyodərə kənd sakinləri adından

Həşimov Eminəli, Məmmədov Güloğlan, Ağayev Məmədağa, Həşimov Xanverdi, Feyziyev Zahidxan, Məmədov Bəyoğlan, Əzizov Fəxrəddin, Ağayev Fəzail, Babayev Allahşükür, Muradov Təbriz, Zahidov Arzuman, Nağıyev Mərdan və başqaları,

cəm 28 imza

**Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevə**

**Hörmətli cənab Prezident!**

Son illər Sizin uğurlu fəaliyyətiniz insanlara, onların rifah halının yaxşılaşmasına, xalqın illərlə arzuladığı həyat şəraitinin gerçəyə dönməsinə xidmət edir. Sizin rəhbərliyinizlə respublikanın hər yerində aparılan tikinti- abadlıq, quruculuq işləri, ən ucqar kəndlərdə yeni infrastrukturun yaradılması, həyata keçirdiyiniz daxili və xarici siyasət bunun bariz nümunəsidir.

**Möhtərəm Prezident!**

Noda-Şingədulan-Xanagah avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sizin 01 noyabr 2016-cı il tarixli Sərəncamınız biz kənd sakinlərinin böyük sevincinə səbəb olmuşdur. Bu yolun tikilərək istifadəyə verilməsi insanların rahatçılığı ilə yanaşı, gənclərimizin kəndi tərk etməsinin qarşısını alacaq, kənd təsərrüfatının inkişafına stimul verəcəkdir.

Bizə göstərdiyiniz bu diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımızı bildiririk. Biz fəxr edirik ki, Sizin kimi qayğıkeş Prezidentimiz vardır. Allah Sizi qorusun!

Dərin hörmətlə,

Lerik rayonunun Biləvər, Şivlə və Geskon kəndlərinin sakinləri adından

Azadov Ağababa, Əliyev Mirzəli, Məmmədov Tofiq, Zamanov Böyükxan, Əliyev Surət, Ağayev Rizvan, Məmmədov Naib, Fərəcov Əsəd, və başqaları, cəm 52 imza

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEVƏ**

**Hörmətli cənab Prezident!**

Ulu Öndər, xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulan strategiyanın Sizin rəhbərliyinizlə uğurla həyata keçirilməsi Azərbaycanın dinamik inkişafı ilə yanaşı, dünyada söz sahibinə çevrilməsində də mühüm rol oynamışdır. Həyata keçirilən bu siyasi kurs, respublikanın bütün regionlarında aparılan tikinti-quruculuq işləri əhali tərəfindən rəğbətlə qarşılanır, dəstəklənir.

**Möhtərəm Prezident!**

Lerik rayonu dağlıq relyefdə yerləşir. Burada kəndlərlə rayon mərkəzini birləşdirən avtomobil yolları heç sovet vaxtında asfalt görməmişdi. Ancaq son illərdə rayonun əsas yollarının yenidən tikilməsi və asfaltlaşdırılması həyata keçirilir. Noda-Şingədulan-Xanagah yolunun tikintisi ilə əlaqədar imzaladığınız sərəncamlar Sizin hər bir Azərbaycan vətəndaşına göstərdiyiniz qayğının bariz nümunəsidir. Görülən işləri gördükcə qürur duyur və fəxr edirik ki, Azərbaycanın Sizin kimi Prezidenti var.

Uca Tanrı dövlətçilik yolunda yorulmaz fəaliyyətinizdə həmişə köməyiniz olsun!

Hörmətlə,

Lerik rayonunun Xanagah kənd sakinləri adından

Diniyev Adil, Piriyev Şakir, Hüseynov Buludxan, Nəhmətov Nadir, Əliyev Əliağa, Əmənov Atif, Feyziyev Zakir, Fətullayev Araz, Seyfullayev Allahşükür, Rəciyev Güloğlan, Cəm 65 imza

# VƏTƏNDAŞLARIN ŞİKAYƏTLƏRİNƏ DİQQƏT

**Lerik Rayon İcra Hakimiyyətinin inzibati binasının qəbul otağında rayon icra hakimiyyəti başçısı tərəfindən rayonun aidiyyəti idarə, müəssisə və təşkilat rəhbərlərinin iştirakı ilə vətəndaşların qəbulu keçirildi.**



Ümumilikdə rayon icra hakimiyyəti başçısı tərəfindən 19 nəfər vətəndaş qəbul olunaraq dinlənildi.

Monidigah kənd sakini Göyçək Abdullayeva yaşayış evi ilə təmin olunmasına, Lerik şəhər sakini Şirin Cabbarova uşağına təyin olunmuş alimentin alınmasına, Barzavu kənd sakinləri Mətləb Rəcəbov, Rəsmiyyə Abbasova işlə və Kıncıvo kənd sakini Əzizəli Cəbiyev oğlunun müvafiq işlə təmin olunmasına, Blaband kənd sakinləri Tarverdi Həsənov, Həbib və Manaf Diniyevlər pay torpaq sahəsinin göstərilməsinə, Brkandul kənd sakini Fərrux Mirzəyev tikinti materialının verilməsinə köməklik göstərilməsini xahiş etdilər.

Qəbul edilən bir neçə vətəndaşın problemi müsbət həll edildi, müvafiq köməklik göstərildi.

Rayon icra hakimiyyəti başçısının qəbulunda olan vətəndaşlar tərəfindən qaldırılan problemlərin həlli ilə bağlı müvafiq tədbirlərin görülməsi, müraciətlərinin araşdırılması və icrası ilə əlaqədar aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verildi.

# "ÖLKƏMİZİ TANIYAQ" TUR-AKSİYASI İŞTİRAKÇILARI LERİKDƏ



**"Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində məktəblilərin Lerik şəhərindən təntənəli yola salınma mərasimi keçirildi**

Noyabrın 12-də Heydər Əliyev meydanında Lerik Rayon İcra Hakimiyyətinin məsul işçiləri, müəllimlər və valideynlərin iştirakı ilə "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində rayonun təhsildə fərqlənən bir qrup məktəbli uşaqların "Gəncə-Şəmkir-Göygöl" rayonlarına təntənəli yola salma mərasimi keçirildi.

Lerik rayonunun ümumtəhsil məktəblərinin 17 nəfər X-XI sinif şagirdi və onları müşayiət edən bir neçə müəllim dörd gün ərzində Gəncə şəhərinin, Şəmkir və Göygöl rayonlarının tarix və mədəniyyət abidələrinə, rayonun görməli yerlərinə səyahət edəcək, sosial-iqtisadi inkişaf sahəsində qazanılan nailiyyətlərlə yaxından tanış olacaq, müxtəlif tədbirlərdə iştirak edəcəklər.

Tur-aksiyanın iştirakçılarını yola salma mərasimində çıxış edən Lerik Rayon İcra Hakimiyyəti başçısının müavini Arzu Vəlməmmədova tur-aksiyanın iştirakçılarını salamlayaraq ölkəmizdə gənclərə göstərilən dövlət qayğısından, bu sahədə rayonda görülmüş işlərdən, regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının icrası istiqamətində həyata keçirilən layihələrdən danışdı, məktəblilərə yaxşı yol arzulayaraq, ölkəmizi daha yaxından tanımaq üçün məktəblilər üçün yaradılan şəraitə görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlığını ifadə etdi.

# MÜƏLLİM GÖZÜMDƏ ƏN ƏZİZ İNSAN

**Dahilərdən biri deyib ki, əgər məndən soruşsalar, ən şərəfli peşə hansıdır, mən fikirləşmədən cavab verərdim: müəllimlik.**



Bəli, dünyanın ən dahiləri, bilikli və zəkalı alimləri məhz müəllimdən dərs almış, həmişə ona ehtiram göstərmişlər. Əhməd Ağayev də müəllim sənətini seçmiş, ali təhsil almış, doğma kəndinə qayıdaraq zəhmətkeş övladlarına elm və bilik, tərbiyə, vətənpərvər olmağı öyrətmişdir.

Əhməd Ağayev 1993-cü ildə Vizəzəmin kənd orta məktəbini bitirmişdir. O da həmyaşıdlarına qoşulub, Vətənin müdafiəsinə qalxıb. Yaranmış hərc-mərclik, məğlubiyyətlər onu ruhdan salmamış, mərd, qorxmaz və qətiyyətli, yurdsevər olduğunu sübut etmişdir.

Lənkəran Dövlət Universitetinin tarix-ictimaiyyət fakültəsini uğurla bitirən Əhməd Ağayev 2001-ci ildən etibarən doğma kəndində müəllim işləyir. İşləməkdən işləməyə fərq var. O, peşəsinə həmişə vicdanla yanaşır, şagirdlərə elmi bilikləri öyrətməklə yanaşı, vətəni sevməyi, vətəni müdafiə etməyi öyrədir, əsl vətəndaşlar olmağa sövq edir, tədrisdə yeni iş metodlarını tətbiq edir.

Əhməd müəllim öz ixtisası üzrə daim təkmilləşir, yetirmələrinin yüksək bilik qazanmsına həmişə diqqət yetirir. O, "Prestij-S" Tədris Mərkəzinin sınaq imtahanlarında 490 bal yığaraq 82 faiz nəticə qazanıb, 1 "a" yeri qazanıb. 2015-ci ildə Respublika Təhsilinin İnkişafı üzrə Dövlət Strategiyasının icrası ilə əlaqədar təhsil işçiləri təhsil alıb, "İnnovativ təhsilin metodologiyasının və müvafiq resursların hazırlanması" mövzularında 60 saatlıq seminar-treninqdi müvəffəqiyyətlə bitirmişdir. Özünün dediyi kimi, həmişə oxumağa, öyrənməyə vaxt var, öyrənməliyik ki, şagirdləri də öyrədək.

Əhməd müəllimin uğurları layiqincə qiymətləndirilir. O, çalışdığı məktəb direktoru tərəfindən Müəllimlər günü münasibətilə gənc nəslin təlim-tərbiyəsində fərqləndiyinə görə Lerik rayon təhsil şöbəsi tərəfindən səmərəli pedaqoji fəaliyyətinə görə Fəxri fərmana layiq görülmüş, qabaqcıl müəllim kimi rayonun təhsil işçilərinə nümunə göstərilmişdir.

Sevindiricidir ki, Əhməd Ağayev məktəbdə cənab Prezident İlham Əliyev tərəfindən ikinci "Tərəqqi" medalına layiq görüləndir. Vizəzəmin kəndinin yetirməsi, hazırda Hamarməşə kənd orta məktəbində müəllim işləyən İradə Qulamova da bu medala layiq görülənlər sırasındadır. Əhməd müəllim Respublika Təhsil naziri tərəfindən "Qabaqcıl təhsil işçisi" döş nişanına layiq görülüb.

Əsl pedaqoq, dövrün tələbləri ilə işləyən müəllim Əhməd Ağayev deyir:

- Mən mükafatlarımla deyil, daha çox yetirmələrimin uğurları ilə fəxr edirəm. Prezident təqaüdünə layiq görülən Nərmin Əmirova, onun qardaşı, ali məktəbə qəbul imtahanında 670 bal toplamış Nurlan Əmirovla tək mən yox, kəndimiz, rayonumuz fəxr edir. Mənim də ən böyük mükafatlarım onlardır

Əhməd müəllim, hələlik bu qeydlərimizlə kifayətlənirik. Sizin arzuladığınız uğurlar hələ irəlidədir. Jurnalist qələmi də müəllim uğurlarından yazmağa, onu xalqa tanıtmağa borcludur.

***İdris Şükürlü***

# HƏZİ ASLANOV KÜÇƏSİNDƏ





**Lerik şəhər statusu aldıqdan sonra bu gözəl məkan görkəmini xeyli dəyişmişdir. Daha doğrusu, bu görkəmi dəyişən dövlətimizin başçısı cənab Prehident İlham Əliyevdir. Məhz Prezidentin Lerikə səfərləri gözəl Leriki daha da yaraşıqlı, abad etmiş, onu yaraşıqlı bir şəhərə çevirmişdir.**

Lerik şəhərinin tikintisində və abadlaşdırılmasında inşaatçıların zəhməti çoxdur. Yağmurlu hava şəraitinə baxmayaraq, onlar qurub-yaratmaq həvəsini azaltmırlar. Hazırda H.Aslanov küçəsində istinad divarları tikilir, üzlük daşla hörülür, yolun gediş hissəsi genişləndirilir, su kanalı betonlanır. Bu işlə məşğul olan usta Afiq Salmanov daha çox fərqlənir, keyfiyyətli işi ilə diqqəti cəlb edir. Onun qardaşı Famil Salmanov, Aqil Salmanov, Ramin Salmanov tapşırıqların öhdəsindən bacarıqla gəlir, həvəslə işləyir, ustalıq nümayiş etdirirlər.

Biz də "Lerik" qəzeti olaraq gənc inşaatçılara işiniz avand olsun, deyirik.

**Babək**

# Şad xəbərlər yayanlar



**Bəli, mətbuat yayımı işçilərini çox vaxt belə adlandırırlar. Onlar bu ada layiqdir. Bir günümüzdə rabitə vasitələrsiz keçmir. Xüsusilə də qəzet və jurnallara həvəs və maraq bu gün də əhəmiyyətini itirməyib, aktuallıq kəsb edir, gündəlik məişətimizin, sosial həyatımızın ayrılmaz hissəsidir.**

Bəs bizə şad xəbərlər çatdıranlar kimlərdir? Onlardan birini çoxları tanıyır: Bəxtiyar İbrahimov. Bəxtiyar otuz ildən çoxdur ki, Lerik rayon poçt filialında işləyir. Əvvəllər poçtalyon işləyib, hazırda qəzet çeşidləyicisidir. Ayda 5329 adda mətbuat növlərini çeşidlərə ayırıb, poçtalyonlar vasitəsilə sahiblərinə göndərir. O, öz sevimli peşəsindən zövq alır, işin çoxluğu onu yormur. Hamı onun xoş rəftarından, təvazökarlığından, bacarığından razılıq edir. Bilirlər ki, Bəxtiyar iş başındadırsa, deməli hər şey qaydasındadır.

Əliyev Fərman poçt filialının sürücüsüdür. Onu qəzet sexində teztez görmək olur. Axı, şad xəbərlər yayanların yaxın köməkçisi, çətin günün adamıdır. (şəkildə sağda)

Biz də mətbuat yayımı işçilərinin fəaliyyətini yüksək qiymətləndirir, onlara həmişə öndə olmağı diləyirik.

***"Lerik"***




# 2016-Cİ İLDƏ LERİK RAYONUNUN TƏHSİL, MƏDƏNİYYƏT, SƏHİYYƏ, PENSİYA TƏMİNATI VƏ İDMANIN VƏZİYYƏTİ HAQQINDA

## TƏHLİLİ MƏRUZƏ

**ÜMUMİ TƏHSİL.** 2015\2016-ci dərs ilinin əvvəlinə rayonda (şəhərdə) fəaliyyət göstərən 107 dövlət gündüz ümumtəhsil məktəblərində 7505 nəfər şagird təhsil almış və ötən dərs ili ilə müqayisədə onların sayı 172 nəfər və ya 3,0 faiz azalmışdır.

| | 2015/2016 | | | 2014/2015 | | |
|---|---|---|---|---|---|---|
| | Cəmi | onlardan | | Cəmi | Onlardan | |
| | | Şəhər | Kənd | | Şəhər | Kənd |
| Məktəblərin sayı – cəmi | 107 | 4 | 103 | 108 | 4 | 104 |
| o cümlədən | | | | | | |
| ibtidai | 23 | | 23 | 23 | | 23 |
| əsas | 47 | | 47 | 48 | | 48 |
| orta | 37 | 4 | 33 | 37 | 4 | 33 |
| Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi məktəblər | | | | | | |
| Şagirdlərin sayı – cəmi, nəfər | 7505 | 1026 | 6479 | 7677 | 1003 | 6674 |
| o cümlədən: | | | | | | |
| ibtidai məktəblərdə | 260 | | 260 | 274 | | 274 |
| əsas məktəblərdə | 2387 | | 2387 | 2454 | | 2454 |
| orta məktəblərdə | 4858 | 1026 | 3832 | 4949 | 1003 | 3946 |
| Müəllimlərin sayı, nəfər | 1076 | 105 | 971 | 1227 | 114 | 1113 |

Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün rayonomuzda ayrıca xüsusi məktəb, ancaq ümumtəhsil məktəblərində xüsusi siniflər fəaliyyət göstərmiş və onlarda 66 nəfər uşaq təhsil almışdır.

Gündüz ümumtəhsil məktəblərində maddi-texniki bazanın yeniləşdirilməsi prosesi davam etməkdədir. Cari dərs ilində 2 məktəb binası tikilib istifadəyə verilmişdir.

Rayonda orta məktəb binasının 7% və əsas məktəb binalarının 20%-əsaslı təmirə ehtiyacı var.

Rayonun şəraitinə müvafiq olaraq əksər məktəblərin sinif otaqları ancaq odun sobaları ilə qızdırılır. Ancaq son illərdə 15-16 məktəbdə kombi sistemi qurulmuşdur.

2015-2016-ci dərs ilinin əvvəlinə məktəblərdə mövcud olan kompüter texnikası aşağıdakı cədvəldə göstərilmişdir.

| | | 2015/2016 | | 2014/2015 |
|---|---|---|---|---|
| İkinci növbədə məşğul olan şagirdlərin sayı: | | 1007 | | 960 |
| Cəmi, nəfər | | 1007 | | 960 |
| *Şagirdlərin ümumi sayına nisbətən, faizlə* | | 5.0 | | 12,5 |

Son illər ikinci və üçüncü növbələrdə məşğul olan şagirdlərin xüsusi çəkisinin azalması meyli müşahidə olunur:

Rayonda fəaliyyət göstərən ümumtəhsil məktəblərinin heç birində üçüncü növbədə dərs olmamışdır.

2015-ci ildə ümumtəhsil məktəblərini 541 nəfər bitirmiş və 541 ümumi orta təhsil haqqında attestat almışlıar.

Respublikanın ayrı-ayrı bölgələrində yeni dövlət ümumtəhsil məktəbləri ilə yanaşı qeyri dövlət ümumtəhsil məktəbləri şəbəkəsi genişləndirilmişdir. Lakin rayonumuzda qeyri dövlət ümumtəhsil məktəbləri yoxdur.

| | əsas məktəblərdə | | orta məktəblərdə | |
|---|---|---|---|---|
| | Şəhər | Kənd | Şəhər | Kənd |
| Kompüterləri olan məktəblərin sayı: | | 48 | 4 | 33 |
| Cəmi | | 48 | 4 | 33 |
| *Məktəblərin ümumi sayına nisbətən, faizlə* | | 33.3 | 100.0 | 100.0 |
| İnterneti olan məktəblərin sayı: | | 16 | 4 | 22 |
| Cəmi | | 16 | 4 | 22 |
| *Məktəblərin ümumi sayına nisbətən, faizlə* | | 33.0 | 100.0 | 66.6 |

**PEŞƏ TƏHSİLLİ.** Şəhərdə peşə təhsil verən bir məktəb fəaliyyət göstərir və bu məktəb orta təhsil vermir.

Peşə məktəbi, xalçaçılıq və dərzilik peşələrini 2 il, saç ustası, elektrik montyoru və qadın bərbəri ixtisaslarını 1 il müdətinə öyrədib peşə təhsilli mütəxəssislərini istehsalata göndərir.

Peşə təhsilinin inkişafı aşağıdakı əsas göstəricilərlə xarakterizə olunur.

| | 2015-2016-ci il | 2014-2015-ci il |
|---|---|---|
| Peşə məktəblərinin sayı | 1 | 1 |
| Onlardan tələbələrin sayı | 120 | 120 |
| Əhalinin hər 10000 nəfərinə düşən tələbələrin sayı | 40 | 40 |
| Qəbul olunmuş tələblərin sayı | 120 | 120 |
| Buraxılmış mütəxəssislərin sayı nəfər | 100 | 100 |

Rayonda orta məktəbi bitirən yüzlərlə gənc hər il Respublikanın ali məktəblərinə daxil olaraq təhsillərini davam etdirirlər. Bunula yanaşı rayon sakinlərindən Türkiyənin, İranın, Rusiyanın ali məktəblərində təhsil alanlar da vardır. Cari dərs ilinin əvvəlinə ali məktəblərin əyani şöbələrində tələbələrin 8,3%-i, qiyabi şöbələrində 1,5%-i və axşam şöbələrində 0,9%-i təhsil alırlar.

**MƏDƏNİYYƏT.** Mədəniyyət və incəsənət müəssisələrinin sayının dəyişməsinə dair məlumatlar (2015 ci ilin axırına) aşağıda göstərilmişdir:

| | 2015 | | 2014 |
|---|---|---|---|
| **Teatrlar** | - | | - |
| **Muzeylər** | 2 | | 2 |
| **Kinoteatrlar** | 1 | | 1 |
| **Klublar** | 66 | | 66 |
| **Kitabxanalar** | 64 | | 64 |
| **Musiqi məktəbləri** | 2 | | 2 |

**Rayonda** müşahidə olunan kinoteatrlar, klublar, kütləvi kitabxanalar şəbəkəsinin azalması onların populyarlığının aşağı düşməsi və bura gələnlərin sayının azalması nəticəsində baş verir. Eyni zamanda bu proses, xüsusilə gənclər arasında tamaşaçı marağının dəyişməsinə fəal təsir edir, əyləncə və asudə vaxtın keçirilməsinin yeni növlərini təklif edən şoubiznesin inkişafı və məhşurlaşması ilə geniş bağlıdır. Bundan başqa, maddi-texniki bazanın geridə qalması nəticəsində cəmiyyətin mədəniyyət istehlakçıları ilə onların ənənəvi mədəniyyət və incəsənət müəssisələrindən istifadə etmək imkanları arasında fərq getdikcə daha çox artır. Digər amillərlə yanaşı, maddi vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə əhalinin əlavə qazanc əldə etməsi asudə vaxtın məhdudluğuna səbəb olur bu da müəssisələrə gələnlərin sayının azalmasına təsir edir.

Mədəniyyət və incəsənət müəssisələrinə gələnlərin, kütləvi kitabxanalarda oxucuların sayı haqqında məlumatlar aşağıda göstərilmişdir:

**Gələnlərin sayı, min nəfər**

| | 2015 | | 2014 |
|---|---|---|---|
| **Teatrlara** | Yox | | Yox |
| **Muzeylərə** | 3,3 | | 3,1 |
| **Kino seanslara** | Yox | | Yox |
| **Kitabxanalara** | 23,8 | | 23,7 |

Kitabxana fondlarının azalması, eləcə də kəskin bahalaşma nəticəsində onların yeni kitab və nəşrlərlə zənginləşdirilməsinin çətinləşməsi kitabxanalara gələnlərinin sayına mənfi təsir edir. Bundan başqa, bu oxucuların marağının dəyişməsi, müxtəlif janrlarda olan kitab məhsulunu və dövri mətbuatı əhaliyə təklif edən kitab bazarlarının (satışının) geniş şəbəkəsinin yaranması ilə də əlaqədardır. Buna baxmayaraq kitab fondu ildən - ilə artır və oxucuların sayı da artmaqdadır.

**Pensiya təminatı.** 2016-ci ilin əvvəlinə Sosial Müdafiə Fondunun rayon (şəhər) şöbəsində 10859 nəfər pensiyaçı qeydiyyatda olmuşdur və onların sayının azalması "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" Qanunlara uyğun olaraq, sosial pensiyaların sosial müavinətlərlə əvəz edilməsi ilə əlaqədardır. Pensiyaçıların 5252 nəfəri yaşa görə, 3677 nəfəri əlilliyə görə, 1930 nəfəri isə ailə başçısının itirilməsinə görə pensiya alan şəxslərdir. Təyin olunmuş aylıq pensiyaların orta məbləği 147.46 manat təşkil etmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rayon (şəhər) şöbəsinin məlumatlarına əsasən, ötən il 3246 nəfərə sosial müavinət təyin olunmuş və 1 nəfərə düşən orta aylıq məbləğ 47.08 manat olmuşdur.

2016-ci il yanvar ayının 1-i vəziyyətinə rayonda (şəhərdə) 4796 nəfərə ünvanlı dövlət sosial yardımı verilmiş və 1 nəfərə düşən orta aylıq məbləğ 30.45 manat təşkil etmişdir.

Səhiyyə. Əhalinin sosial rifahını yaxşılaşdırmaq üçün rayonda (şəhərdə) bir çox sosial təyinatlı obyektlər fəaliyyət göstərir.

2016-cı ilin əvvəlinə rayon (şəhər) əhalisinin sağlamlığını qorumaq məqsədilə 7 xəstəxana, 26 ambulator-poliklinika müəssisələri fəaliyyət göstərirdi ki, onlarda da 53 həkim və 166 orta tibb işçisi çalışırdı. Beləliklə, rayon (şəhər) əhalisinin hər 10000 nəfərinə 6,7 həkim, 20,1 orta tibb işçisi, 22,5 xəstəxana çarpayısı düşür. 2015-ci il ilə müqayisədə həkimlərin sayı 1 nəfər azalmışdır, orta tibb işçilərinin sayı isə 5 nəfər artmışdır. Xəstəxana çarpayılarının sayı isə 180 da qalmışdır.

Rayonda ambulator poliklinik müəssisələrinin gücü 589 olmaqla rayon əhalisinin hər 10000 nəfərinə 73,5 olmuşdur.

Əhalinin sağlamlığının qiymətləndirilməsinin əsas göstəricilərindən biri də xəstələnmə hallarından ibarətdir. Rayonda (şəhərdə) ötən il qeydiyyata alınmış xəstəliklər arasında yft vbmkftı xəstəlikləri, tənəffüs orqanları xəstəlikləri, onkoloji xəstəlikləri üstünlük təşkil etmişdir.

İdman. 2015-cı ildə rayonda 143 idman qurğusu fəaliyyət göstərirdi. Onlardan 8998 nəfər idmanla məşğul olur. 1,5 min və daha çox yer tutan stadion fəaliyyət göstərərək idmançıların öhtəsindədir. Rayon (şəhər) əhalisinin 8998 nəfəri və ya 11,3 faizi bədən tərbiyəsi ilə məşğul olur ki, bunlardan da 3803 nəfəri və ya 4,2% qadınlardır.

Rayonumuzda ulu öndərimiz Heydər Əliyevin ad gününə və digər bayramlara həsr olunmuş müxtəlif idman yarışları keçirilərək qaliblərə mükafatlar verilir. Bele kütləvi idman tədbirləri gənc nəslin asuda vaxtının səmərəli keçməsinə və beleliklə gənclər arasında hüquq pozmaların tamamilə aradan qalxmasına xeyli köməklik göstərir.

# YAZIÇI-DRAMATURQ, MİLLƏT VƏKİLİ, ÇOX HÖRMƏTLİ HÜSEYNBALA MİRƏLƏMOVA



**Hörmətli Hüseynbala müəllim, "Xəzər" televiziyası ilə günorta saatlarında sizin dəvət aldığınız "Könül dünyası" verilişini diqqətlə izlədim.**

Sizin müdrikliyiniz, Könül xanımın yüksək aparıcılıq qabiliyyəti verilişin dəyərini, məna tutumunu daha da artırdı. Müzakirə edilən mövzunun bədii dəyəri və təhlili, fəlsəfi dərinliyi, əhəmiyyəti, bəşəri xarakter daşıması məni çox düşündürdü.

Sizin şəxsiyyətinizin yaradıcılığınızla bir tamlıq, harmoniya təşkil edir. Yaradıcı insanların sözü ilə işi, arzusu ilə əməli bir olmalıdır. Yoxsa ona kim inanar...

Aparıcının sualına cavab olaraq bildirdiniz ki, bəzən etibar edib inandığın, süfrəndə çörək verdiyin, sıxıntılarına şərik çıxdığın adam elə bir hərəkətə yol verir ki, təəssüflənirsən ki, bu sənin düşündüyün adam deyilmiş. Necə ki, çətinlikdən çıxdı, daha üzünü görmə.

Hüseynbala müəllim, sizin milli-mənəvi dəyərlərdən, ağrı-acılardan, Qarabağ müharibəsindən, bugünkü həyatımızdan söhbət açan, hamını qoyulmuş problemlərin həllinə çağıran əsərləriniz ürəyimizdən xəbər verir. Siz müasir yazıçı kimi tanınmısınız, lakin tarixi keçmişimizə də biganə deyilsiniz. Siz təsvir etdiyiniz hadisələri hiss edir, duyur, yaşayır, sonra qələmə alırsınız. Siz problemlərin bədii həllinə nail olan səlnaməçisiniz. Qələmə aldıqlarınız hadisələr, süjetlər həyat həqiqətlərinə söykənir.

Jul Renar deyir: Əgər həqiqət quyunun dibində olsaydı, özümü hökmən ora atardım. Həyat həqiqətlərinin axtarışında sizə yeni uğurlar, yeni əsərlər arzulayıram.

**İdris Şükürlü,**
**Əməkdar jurnalist**
**12.IX.2016**

# AĞAC ÜZƏRİNDƏ OYMA USTASI

**Atası Sərhəng Qafarov Şuşanın işğalından sonra Azərbaycanın qədim milli musiqi alətlərini hazırlayan "Ustad" kiçik müəssisəsini açmışdı. Cəngəmiran kəndinin ərazisində yerləşən bu müəssisədə 8 nəfər işləyirdi. Əvvəllər iş yaxşı gedirdi, bəzi maneələr ucbatından həmin kiçik müəssisə bağlandı.**



Sərhəng müəllimin oğlu Famil o vaxtlar gənc olsa da, ustaların hazırladığı əl işlərinə heyranlıqla tamaşa edər, ağac parçalarına yeni həyat verən əllərə möcüzə kimi baxardı. O, Lerik peşə məktəbində işləyəndə ağac üzərində oyma sənətinə maraq göstərirdi. Bu istəklə də ev şəraitində müxtəlif ağaclardan dekoratik sənət nümunələri yaratmağa başladı. Bir də gördü ki, onun əl işlərindən Lerik rayon mədəniyyət şöbəsində xəbər tutublar

2012-ci ildə Lənkəran şəhərində keçirilən Respublika Dekorativ tətbiqi sənət Festivalında fəal iştirakına görə Azərbaycan Respublikasının Mədəniyyət naziri Ə.Qarayev tərəfindən Fəxri Fərmana layiq görüldü. Lerik rayonunun müxtəlif tədbirlərində əl işləri nümayiş etdirildi.

Famil Qafarovun yaratdığı əsərlər müxtəlif janrlarda olsa da, milli kolorotinə, təbiiliyinə, rəng seçiminə görə seçilir, tamaşaçının diqqətini cəlb edir. Onların daha yaşlı bir ustanın əli ilə hazırladığını zənn edirsən. Lakin Famil gənc olduğu kimi onun əsərləri də müasirdir, milli dəyərlərə söykənir, mədəniyyətimizin təbliğinə həsr olunmuşdur.

İnanırıq ki, Famil Qafarovun daha yaxşı uğurlar qazanması üçün diqqətdən kənarda qalmağacaq.

***Babək***

## HƏKİM MƏSLƏHƏTİ

# Qripdən qorunun!



***Vəlixan Bədəlov,***
***Lerik RMX-ın uşaq şöbəsinin müdiri***

**Qrip nəfəs yollarının kəskin infeksiya xəstəliyidir, əsas əlamətləri qızdırma, titrəmə, baş və boğaz ağırları, öskürmə, ümumi zəiflikdir. Qrip xəstəliyi bəzən zökəmlə qarışdırılsa da, daha ağır formalı xəstəlik hesab olunur və fərqli virusla yoluxma nəticəsində baş verir. Qripin təsiri zökəmə nisbətən daha ağır və uzunmüddətli olur. Qrip azyaşlı, qoca zəif və xroniki xəstəliklərə malik olan insanlar üçün daha təhlükəli ola bilər.**

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, "Hər qış dünyada on milyonlarla insan qripə yoluxur. Yoluxan insanların çoxu bir həftə ərzində iş və ya təhsildən kənarda qalır, lakin yuxarı yaş qrupuna malik insanlar xəstəlik nəticəsində ölüm riski altında qala bilərlər". Məlumdur ki, hər il dünyada yüz minlərlə insan bu xəstəlik nəticəsində dünyasını dəyişir. Bütün hallarda qripə yoluxduqda həkimə müraciət etmək, lazımi tövsiyələri yerinə yetirmək lazımdır.

İnsanın qrip virusu ilə yoluxması simptomların ortaya çıxmasından bir gün əvvəl başlanır və bu 5-7 gün müddətində davam edir. Həmin müddətdə qrip olan insan digər insanları da yoluxdurma qabiliyyətinə malik olar. Virusa yoluxmadan 2-3 gün sonra insan ətrafdakılara daha çox yoluxdurma ehtimalına malik olur. Temperaturu daha yüksək olan insanlar adətən virusu daha çox yayırlar. Uşaqlar daha çox virusu yaymaq qabiliyyətinə malik olurlar.

Qripə yoluxmadan az sonra xəstənin bədən temperaturu 38-39oC kimi daxil olur. Bəzi insanlar qripi çox ağır formada keçirir, yataqda çox qalır, bütün bədəndə, xüsusilə ayaqlarda və beldə kəskin ağrılar hiss edirlər.

Bəzi adamlar qripə yüngül xəstəlik kimi baxır, onu ayaq üstə və ya işdə keçirir, həkimə müraciət etmir, məsləhət almır, dərman preparatlarından istifadə etmirlər. Bu da qripə tutulmuş insanlarda fəsadlar törədir və qripə həssaslıqla müşayiət olunur. Qripə tutulanlar çox vaxt evdə, ağır forma aldıqda da xəstə evdə saxlanılır, bu isə xəstənin vəziyyətinin ağırlaşmasına səbəb olur. Xəstə qızdırmalı dövründə yataq şəraitində müalicə olunmalıdır. O kənar şəxslərlə az təmasda olmalı, işldətdiyi qablar təmiz saxlanmalıdır. Qripə yoluxmuş xəstələr vitaminlə bol olan qidalara üstünlük verməlidir, bol maye içməlidir, otağın havası tez-tez dəyişdirilməlidir.

Qripə qarşı peyvənd inkişaf etmiş ölkələrdə geniş yayılıb. Peyvəndlərdən mütəmadi olaraq istifadə edilməlidir. Peyvənd nəticəsində əmələ gələn qrip insandan insana ötürülmür, çox zəif gücə malik olur. Qripə qarşı peyvənddən istifadə olunmalı, bu qorxulu xəstəliyə ciddi yanaşılmalıdır.

# OĞULUNUN SƏHVİ

HEKAYƏ

**Söyüdlü kəndində ana tək oğlu ilə yaşayırdı. Onların heç kəsi yox idi. Amma ana öz balası üçün hər zəhmətə qatlaşırdı. Ana düşünürdü ki, oğlum böyüyər və mənə sahib çıxar. Ana əziyyətlə oğlunun təhsil haqqını yığmışdı və onu oxumağa göndərməyə hazırlaşırdı. Oğlu düşünürdü ki, oxuyub özümə iş tapar, anamı da özümlə şəhərə apararam.**

Aylar ötdü, oğul universitetə daxil oldu. Ana oğlunu yola saldı. Oğlan universitetdə nümunəvi idi. O, dərsdən sonra çalışırdı. Lakin bu çox sürmədi. O, ilk aylarda anasına zəng edib pul göndərsə də, sonralar anası yadına da düşmürdü. Heç tətildə də evlərinə dönmürdü.

Ana çox narahat olmuşdu. Oğlanın belə davranışına səbəb ətrafındakılar idi. Ona dost münasibəti göstərərək narkotikə öyrədirdilər. Oğlan əvvəlcə özünü toplamaq istədi, lakin bacarmadı. Anasına etdikləri az deyilmiş, hər ay zəng edib təhsil haqqı adı ilə ondan pul istəyirdi. Ana borc alırdı, başqalarının evini təmizləyirdi, güclə pul yığıb oğlana göndərirdi. Artıq oğlan az da olsa anasını düşünürdü.

Oğlanın dönmək vaxtı gəldi. Ana daxmasında kiçik bir süfrə açdı, oturub oğlunun yolunu gözlədi. Amma oğlan gəlib çıxmadı. Gecə yarı oldu, ananın oğluna ümidi qalmadı. Səhər yenə oturub gözləməyə başladı. Oğlundan isə bir soraq gəlmədi.

Nəhayət, oğul gəlib çıxdı. Ana qaçaraq oğlunu qucaqladı. Oğlan da bərk-bərk anasına sarıldı və ağlamağa başladı. Onlar içəri keçib yemək yedilər. Sonra ana oğluna dedi:

- Oğul, bəs sənin diplomun hanı? Gətir baxım.

Oğlan əvvəlcə nə deyəcəyini bilmədi.



*Günəş Səma Salayeva*

Sonra:

- Yaxşı, - deyib çölə çıxdı. O, düşünürdü ki, indi mən neyləyim? Əgər anam universitetdən qovulduğumu bilsə, mən ona nə cavab verəcəm?

Sonra oğlanın yadına düşdü ki, anası oxuya bilmir. Oğlan çantasından bir kitabça çıxarıb dedi:

- Budur, ana, bax.

Ana kitabçanı öpüb sinəsinə sıxdı. Oğlan hər dəfə anasının dən düşmüş saçlarını görəndə utanırdı. Oğlan hər gün düşünürdü: "mən bu səhv yoldan necə dönüm".

Oğlan səhər tezdən durub küçəyə çıxdı. O, hardansa pul tapmaq, oğurluq etmək istəyirdi. Bir az ətrafa baxdı. "Aman Allahım, həmişə mənə və anama kömək edən insanlara qarşı necə belə hərəkət edim".

Bir qədər keçdi, oğlan artıq özündə deyildi. Qonşusu Əsmər xalanın evinə girib, onun evdə olmamasından istifadə edərək oğurluq etdi. Şəhərdəki "dostları-na" zəng etdi, "məni gözləyin", - dedi. Oğlan evə gələrək, son dəfə anası ilə vidalaşdı, bərk-bərk anasına sarıldı və dedi:

- Ana   Ana, məni bağışla. Bəlkə bir də bir-birimizi görmədik, bəlkə də bu bizim son söhbətimizdir. Ana! Sənə zəhmətinə görə çox təşəkkür edirəm. Anacan, lap istəyirsən zəhmətini halal etmə

Anaya oğlunun sözləri çox qəribə gəlirdi.

- Axı nə olub, oğlum? Mən sənə öz haqqımı halal edirəm. Məni bir də niyə görməyəcəksən ki? Yoxsa məni qoca hesab edirsən? Yox, oğlum, mən hələ yaşamaq istəyirəm. O günə qədər ki, sənin toyunu görüm. Tanrımdan tək diləyim sənin toyunu görməkdir.

Oğlanın dili tutuldu, susaraq içəri keçdi. Gecə oldu. Ana və oğlu heç bir şey danışmırdılar. Oğlan tez-tez dərindən ah çəkirdi. Bir az keçdi. Anası yatmağa getdi. Oğlan hazırlaşıb gedirdi. Həyətdən çıxanda payızın soyuq küləyi onun üzünə vurdu. Elə bil bu anı dayandırmaq istəyirdi. Amma o dayanmadan getdi

Səhər açıldı. Ana oyandı, amma oğlunu görmədi. Sonra onun yatağının kənarında bir kağız gördü. Düşündü: "Görəsən bu nə kağızdır? Axı, mən oxumağı bacarmıram". Birdən ananın yadına düşdü: Bu gün mənim doğum günümdür. Yəqin oğlum məni təbrik etmək üçün yazıb. Bəs özü hanı? Ana oğlunun harasa getdiyini düşündü. "Yəqin oğlum kəndi gəzməyə gedib. Mən gedim bu kağızı birinə oxutdurum".

Ana qonşuya gəldi. Orada Nərgiz adlı bir qıza oxutdurdu. Ana Nərgizi oğluna almağı düşünürdü.

Nərgiz dedi:

- Xala, burada belə yazılıb: "Ana, səndən dəfələrlə üzv istəyirəm. Mən getməliyəm və bir də dönməyə bilərəm. Mən istəmədən getdim, mənim iradəm zəif oldu, dözə bilmədim. Məni narkotikə alışdırdılar. Mən sənə layiqli övlad deyiləm. Əlvida, ana, əlvida! Oğlun Kamran".

Bu sözlərdən elə bil ananın ürəyinə ox sancıldı. Ana süzgün yolmağa başladı. Hamı ananın səsinə yığışıb gəldi. Qonşular ananın halına yanırdılar. Amma onlar təkcə təsəlli verə bilirdilər. Onlar nə qədər təsəlli versələr də, ana sakitləşmədi. Oğlan isə yenə şəhərdə idi və eyni şeylərlə məşğul olurdu. Anasını yaddan çıxarmışdı.

Aylar keçdi, il dolandı, ana tamam taqətdən düşmüşdü. Saçları tamam ağappaq, üzü qırışmışdı. Qaşları belə ağarmışdı. Qonşular ona tez-tez baş çəkir, anaya yemək jətirərdilər. Ananın qəlbində isə sağalmaz bala dərdi var idi. Bu yara sağalmaz olaraq qaldı. Günlərin bir günündə anaya xəbər gəldi ki, oğlu oğurluq etdiyi üçün polislər tərəfindən yaxalanıb.

Ana çox kədərləndi və dedi:

- Ah! Oğlum, mən axı səni belə böyütməmişdim. Mən öz halal zəhmətimlə səni böyütdüm.

Ana düşünürdü ki, mən oğlumun yanında olmalıyam. Tez hazırlaşıb şəhərə – oğlunun yanına getdi. Polis bölməsində onların görüşməsinə icazə verdilər. Oğlu anasının üzünə baxanda utanırdı.

Aylar keçdi. Qarşısına məqsəd qoydu ki, zərərli vərdişdən qurtulacaq və anama layiqli övlad olacam.

Ana hər həftə həbsxanaya - oğluna ziyarət etməyə gedirdi. Oğlan anasının qabar-qabar olmuş əllərini, ağarmış saçlarını görəndə utanırdı və daha da iradəsini gücləndirirdi. Nəhayət, oğlan azadlığa buraxıldı. Artıq oğlan tamam dəyişmişdi, o ağbirçək anasına qayğı göstərir, onun yanından çəkilmirdi. O, narkotikdən istifadə etmirdi. Bir müddət işlədi, pul yığdı, sonra anasının məsləhəti, həm də istəyi ilə qonşu qızı Nərgizlə evləndi. Ana indi özünü xoşbəxt hiss edirdi.

Bir neçə müddətdən sonra Kamran və Nərgizin bir oğlu oldu. Onlar xoşbəxt bir ailə qurdular. Ana həmişə Ulu Yaradana şükr edirdi. Əsrimizin bəlasına çevrilmiş narkomaniyaya nifrət edirdi. O, dərk etdi ki, hələ heç kəs bu qara ölümdən xeyir götürməyib

## Hamıya həyansan, Mübariz həkim

Dağlar diyarında tutmusan qərar,
Gül açıb qəlbində incə arzular.
Xəstələr edirlər sənə etibar,
Təbibsən, loğmansan, Mübariz həkim.

Əməyin yoluna saçır işıq, nur,
Sinəndə sevgi var, üzündə qürur.
Çırpınan ürəyin elinçün vurur,
Zəkanda ümmansan, Mübariz həkim.

Peşənlə olmusan qəlblərə hakim,
Səni el-obada çox sevir hər kim.
İzn ver, söz ilə rəsmini çəkim,
Hamıya həyansan, Mübariz həkim.

Xəstəyə məlhəmdir şəfalı əlin,
Şirindir, şəkərdir bal kimi dilin.
Çəkdiyin zəhməti unutmaz elin,
Arzusan, gümansan, Mübariz həkim.

Xəstəyə vaxtında yetdin köməyə,
Qoymadın qəm-qüssə xəstəni əyə.
Hamının gözündə döndün mələyə,
Sözünlə məlhəmsən hər bir xəstəyə,
Təbibsən, loğmansan, Mübariz həkim.

*Ağaş Mirzəzadə,*
*Günəşli kəndi*

## HƏDDİNİ AŞMA

Atını dörd nala çapırsan yaman,
Məzlumu incitmə, eyləmə tüğyan.
Gün ötər, vaxt keçər, yetişər zaman,
Tələsmə, cəzanı alarsan, məmur.

Bu gün fəxr eyləmə şan-şöhrətinlə,
Məzluma verdiyin əziyyətinlə.
Sevinib öyünmə var-dövlətinlə,
Tanrıdan cəzanı alarsan, məmur.

Vaxt gələr, ədalət öz yerin tapar,
Müstəntiq arayar, nöqsanın tapar.
Qanun günahını alnına yapar,
Möhürdən uzaqda qalarsan, məmur.

Aldanma varına, özündən çıxma,
Məzlum insanlara rişxəndə baxma.
Fağırı incidib, boğazın sıxma,
Özünü hörmətdən salarsan, məmur.

Mənəm-mənəm deyib, həddini aşma,
Əyrini düz sanıb, nahaqdan coşma.
Kür tək ləpələnib ətrafa daşma,
Qanundan cəzanı alarsan, məmur!

## YURDUMUN FƏXRİSƏN

Qafqazdan Berlinədək döyüş yolu keçmiş, imzasını Berlinin Brandenburq darvazalarına həkk etmiş üç "Şöhrət" ordenli Əli Nəcəf oğlu Hüseynova ithaf edirəm.

Düşmən güclənirdi daim, anbaan,
Hər kənddə, şəhərdə axıdırdı qan.
Faşistə gücünü eylədin bəyan,
Yurdumun fəxrisən, qəhrəman Əli.

Topunla qorudun qanlı cəbhəni,
Vermədin düşmənə doğma ölkəni.
Xalqın öz qəlbində yaşadır səni,
Faşist qaniçəni susduran Əli.

Üç orden parlayır döşündə sənin,
Qəhrəman oğlusan doğma ölkənin.
Sən örnək kitabı qanlı cəbhənin,
Düşmən cəbhəsini dağıdan Əli.

Almanlar cumdular Stalinqrada,
Sən aman vermədin faşistə, yada.
Atəşlə son qoydun gələn fəryada,
Zərbənlə düşməni susduran Əli.

Şöhrətin yayıldı, düşdü dillərə,
Böyük nümunəsən gənc nəsillərə.
Zəfər bayrağısan azad ellərə
Şöhrəti dillərdə dolaşan Əli.

Sənin şad xəbərin çatdı hər yerə,
Quş tək qanad açdı, gəldi Dasterə.
Muştuluq verdilər xəbərə görə,
Vətənin adını ucaldan Əli.

Ağbirçək analar qarşına çıxdı,
Səni qucaqlayıb köksünə sıxdı.
Sevinc göz yaşları durmadan axdı,
Hamıya örnəksən, qəhrəman Əli.

Yurdumun adını eylədin uca,
Qələbə qazandın cəbhə boyunca.
Adınız yaşayar tarix boyunca,
Tarixi dastansan, qəhrəman Əli.

**Müradəli Hüseynov, Hamarat kəndi**



### YAŞA, VƏTƏN!

Yolunda can qoydu igid ərənlər,
Əsarət buxovun qırdı şəhidlər.
Uğrunda qalxmışdı dərgaha əllər,
Yaşa, doğma yurdum, müstəqil yaşa.

Gözlədin bu günü sən gör neçə il,
Xalqın zəkasıyla oldun müstəqil.
Ucalan bayrağın enməz daha bil,
Yaşa, doğma yurdum, müstəqil yaşa.

Paytaxtın Bakıdır möhtəşəm şəhər,
Önündə gözgüdür o mavi Xəzər.
Meşələr bağ-bağat canlı bir əsər,
Yaşa, doğma yurdum, müstəqil yaşa.

Mərd oğul-qızları göstərər hünər,
Hər biri qəhrəman, düşmənə sipər.
Vətənin yolunda canından keçər,
Yaşa, doğma yurdum, müstəqil yaşa.

Qüdrətli ordunla zəfər çalırsan,
İlhamla dünyaya qapı açırsan.
Xalqınla sevinir, fərəh duyursan,
Yaşa, doğma yurdum, müstəqil yaşa.

Sənlə fəxr edirəm, ey doğma diyar,
Qoynunda yaşayır hamı bəxtiyar.
Səndən ilham alır Əziz İxtiyar,
Yaşa, doğma yurdum, müstəqil yaşa.

### GÜLSÜN NƏNƏM

Mənim nənəm sanki mələk,
Nəzakətli, mehribandı.
Borcumuzdur onu sevmək,
O, Həcərtək qəhrəmandı.

İnsan var ki, qəlbi qara,
Küpəgirən, bəd niyyətli.
Onlar hara, nənəm hara,\
Bir mələkdi, xoş niyyətli.
Ailəsinə sədaqətli,
Həm qeyrətli, həm ismətli
Mənim nənəm.

O, müharibə illərindən
Danışdıqca yandı sinəm.
Acı günlər yaşamışdır
Mənim Gülsün nənəm.

Əziz deyir, heç bir zaman,
Müharibə kaş olmasın.
Nə böyüklər, nə kiçiklər
Acı günlər yaşamasın.

*İxtiyar Əziz*



## CİDDİ SİQNAL

## TİKİLƏNİ DAĞITMAYIN!

**Lerik şəhəri getdikcə abadlaşır. Əhali ölkə başçısı cənab İlham Əliyevə minnətdarlıq edir. Rayon rəhbərliyi qəbul olunmuş sərəncamları yerinə yetirməyə çalışır. Kəndlərə yol və qaz çəkilməsi istiqamətində işlər davam etdirilir.**

Məqsədimiz görülən işləri sadalamaq deyil. Çünki bu barədə yetərincə məlumat vermişik. Yazının sərlövhəsinə uyğun olaraq bəzi məsələlərə toxunmaq istəyirik. Lerikdən başlayaq. H.Aslanov küçəsinə tərəf qalxan pilləkənlər artıq neçənci dəfədir ki, təmir olunur. Xeyli vəsait, ağır zəhmət hesabına başa gələn bu pillələrin işıqlandırma sistemi yenidən qurulur. Axı, işıq lampaları da var idi, normal pillələr də. Tikiləni, qurulanı dağıdıb sıradan çıxarmaq kimə, nəyə lazım idi?

"Elvin" şadlıq sarayının yaxınlığında istirahət məqsədilə tikilənlər, tarixdiyarşünaslıq muzeyinin qarşısında sıradan çıxarılan fəvvarə, Şeytantəpədəki bağdakı skamyalar, plitələr döşənmiş yollar elə bərbad görkəmə salınıb ki, baxanda adamın ürəyi ağrıyır. Nədənsə Lerik şəhərinin tən ortasında pis görkəmə düşmüş tikililəri aidiyyəti təşkilatların cavabdeh şəxsləri görsələr də, onların vecinə deyil.

Əlbəttə, onların nə vecinə? Nə gedirsə dövlətin cibindən gedir, özlərinə obyektlər açıb pul qazanan müəssisə sahiblərinin nə vecinə?

Gəlin tikiləni dağıtmayın. Əgər belə dağıdıcı gücünüz varsa, onu başqa yerdə tətbiq edin.

## İCTİMAİ AYAQYOLUNA KİM TİKMƏLİDİR?

**İnanın ki, bu sual çoxdandır ki, çoxlarını düşündürür. Di gəl ki, cavabı hələ ki, tapılmır. Səlahiyyətli idarə müdirinə sual verdik:**

- Lerik şəhərində ictimai ayaqyolu niyə tikilmir?

Cavabı belə oldu:

- Münasib bir yer tapa bilmirik.

- Necə olur dükan tikməyə yer tapılır, ancaq ayaqyolu üçün yer qəhətə çıxır?

-

Lerik şəhərində ictimai ayaqyolu var idi. Nədənsə onu sökub dağıtdılar, yeri hələ də boş qalıb, onun kimlərəsə maneçiliyi də yox idi axı. Kanalizasiya xətti 15-20 addımlığından keçən köhnə ayaqyolunu bərpa etmək, yəni çox çətin işdir? Həmin yerdə müasir tələblərə cavab verən ayaqyolu tikmək mümkündür. Və gectez bu iş icra edilməlidir. Kənddən, yaxından, uzaqdan gələnlər Lerikdə hər dəfə ayaqyolu aktarışına çıxanda utanc hissi keçirməyək deyə, hər yerdə asanlıqla həll edilən bu işi problemə çevirməməliyik.

**"Lerik"**

## ALLAH RƏHMƏT ELƏSİN

Hacı Mirşahım Talışlı, Əlisəfa Həsənov, İdris Şükürlü "Respublika" qəzetinin baş redaktoru professor Teymur Əhmədova, bacısı

**Xanımzər Əkbər qızının**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

***

Hacı Musa Bədəlov, Qəhrəman Əliyev, Balaşirin Nəsirov, Mübariz Ağayev, Aqil Sucayev, Elman Abbasov, Malik Mirzəyev, Zəfər İsmayılov, Elxan Əliyev, Vəliyulla Alışov, Nizam Muradov, Əzizağa Şahpələngov, Füzuli Zaidov, Xanhüseyn Səmədov, Zəfər Əliyev, Ağaş Mirzəyev, Beytulla Şıxəliyev, Hacı Əbdülhüseyn Kərimov İdris Şükürlüyə, bacısı

**GÜLTAMAM XANIMIN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.



Təsisçilər: Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin redaksiyası
Redaktor: İdris ŞÜKÜRLÜ

Redaksiyanın ünvanı: Lerik şəhəri, Nizami küç. - 36.
Tel.: (070) 520-73-91
(0157) 4-54-50

Yazılardakı faktlara və ifadələrə görə müəlliflər məsuliyyət daşıyırlar. Əlyazmalar geri qaytarılmır.
Sifariş: 338   Tiraj: 500

Lisenziya № V 280
VÖEN 6300050071
Redaksiyanın "Kapital" bankın Lerik filialındakı hesab nömrəsi:
AZ05AİİB33080019447400220174

Kod: 200747
İndeks: 90935
Qəzet "Mətbuat" firmasının mətbəəsində çap edilmişdir.